## Şəhid anası:

# Mən Azərbaycan anasıyam, oğlum da Azərbaycan oğludur



...Hər birimizin qəlbində müqəddəs bir hiss - doğma Vətənə olan məhəbbət hissi yaşayır. Könüllü əsgər anası Fatimə Əli qızı qəlbində olan bu ülvi hiss nişanlı oğlunu Vətənin, xalqın müdafiəsinə təmtəraqla yolladığı gün dillərdə əzbər oldu. Sanki ana öz oğlunu müharibəyə yox, toy-düyünə yola salırdı. Həmin gün Fatimə xanım təkcə doğma oğlu Cəbrayıla deyil, erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşına qalxan 415 nəfər könüllü əsgərə xeyir-dua verdi, ucadan onları cəsarətli olmağa, Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşməyə, mənfur düşmənin başına "daş" yağdırmağa səslədi: "Azərbaycan sizə dədə-babalarınızın əmanətidir. Əmanət olan bu Vətəni qorumaq hər birinizin borcudur. Vətən sevgisi sizə ananızın südü ilə verilib... Mən Azərbaycan anasıyam, oğlum da Azərbaycan oğludur... Yaşasın Azərbaycan, yaşasın Ali Baş Komandanımız İlham Əliyev!.."

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov könüllü əsgərləri fədakarlığa, qəhrəmanlığa çağıran çıxışına görə Fatimə xanıma təşəkkürünü bildirərək dedi: "Biz sizin kimi Azərbaycan anaları ilə fəxr edirik və qarşınızda baş əyirik."

...Aradan çox keçmədi ki, ordumuzun əks hücumu nəticəsində bütün cəbhəboyu düşmənə layiqli cavab verildi, uzun illər işğal altında olan yaşayış məntəqələrimiz bir-bir erməni faşistlərinin tapdağından təmizlənməyə başladı.



***Qısa tanıtım:*** *Cəbrayıl Baloğlan oğlu Qasımov 1996-cı il iyulun 19-da Masallı rayonunun Ərəb kəndində anadan olub. 2002-2013-cü illərdə Rafiq Əlihəsənov adına Masallı şəhər 1 saylı tam orta məktəbində təhsil alıb. Orta təhsilini başa vurduqdan sonra 2014-cü ilin iyul ayında həqiqi hərbi xidmətə çağırılıb. Azərbaycan Silahlı Qüvvələrinin Tərtər rayonunda, "N" saylı hərbi hissəsində rabitəçi kimi xidmət edib. 2016-cı ilin yanvar ayında ordu sıralarından tərxis olunub. 2020-ci il sentyabrın 29-dan Ermənistan işğalı altında olan ərazilərin azadlığı uğrunda başlanan Vətən müharibəsinə könüllü olaraq qatılıb. İştirak etdiyi hərbi əməliyyatlarda böyük şücaət göstərərək düşmən mövqelərinə sarsıdıcı zərbələr endirib. Oktyabrın 8-də Füzuli rayonunun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə son nəfəsinədək vuruşaraq qəhrəmancasına şəhid olub. 9 oktyabr 2020-ci il tarixdə doğulduğu Ərəb kənd qəbiristanlığında izdihamla torpağa tapşırılıb.*

*Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Cəbrayıl Qasımov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.*

### "OĞLUM MƏNİM YARIMÇIQ İŞİMİ TAMAMLAYARAQ ŞƏHİD OLDU"

Cəbrayılın atası Baloğlan Cahangir oğlunu gənclik illərindən zəhmət adamı kimi tanıyıram. Birinci Qarabağ müharibəsində tank qoşunları tağımında döyüşərək 4 ilə yaxın qanlı-qadalı savaşın hər üzünü görmüşdü. Yeganə oğlu Cəbrayıl da uşaq çağlarından atasının müharibədə həlak olan silahdaşları barədə söhbətlərinə qulaq asa-asa qəlbində düşmənə qarşı nifrət hissi kök atmışdı.

...Anası deyir ki, Cəbrayıl qəlbindəki Vətən sevgisini, Azərbaycanın üç rəngli bayrağına olan ehtiramını ilk dəfə 6 yaşında ikən biruzə vermişdi. O gün kiçik toy məclisinin açılış lentini kəsmək ona təklif olunanda Cəbrayıl inadkarcasına etiraz etmişdi: "Əgər Bayrağımızı gətirməsəniz, lenti kəsməyəcəyəm." O zaman 6 yaşlı uşağın Bayraq sevgisi təkcə ata-anasına deyil, bütün məclis əhlinə sevinc hissi yaşatmışdı.

Həqiqi hərbi xidmətdən sonra musiqi sənətinə həvəsi olan Cəbrayıl anasının boya-başa çatdığı qonşu Xırmandalı kəndindən sevib-seçdiyi qızla nişanlanmışdı. Rayon mərkəzindəki şadlıq sarayında təyin olunmuş toy gününə sayılı günlər qalırdı. Lakin Novruz bayramı ərəfəsində pandemiya səbəbindən mart ayının 16-dan toylar təxirə salındığından atası toyun tarixini noyabrın 15-dən sonraya dəyişməli olur.

...Azğın düşmənə qələbə çalmaq əzmi ilə Vətən müharibəsinə könüllü yola düşəndə nənəsi Sevil Yusubova ərklə nəvəsinə: "Ay Cəbi, nənə qurban, axı sən nişanlısan, getmə" deyəndə o, cavab verib ki, torpaq da namusdur, qeyrətdir: "İllərdir ki, yağı düşmənin tapdağı altında qalıb, getməliyəm, artıq bu xəcalətə son qoymağın vaxtı çatıb. Bir də ki, atamı müharibədə qoruyan Allah, məni də qoruyar..."

...İndi şəhid oğlu barədə danışan atası belə deyir: "Oğlum mənim yarımçıq qoyduğum işi tamamlayaraq şəhid oldu. Bütün şəhid valideynlərinə başınızı dik tutun, Vətən sağ olsun deyirəm..." Şəhid atası ilə söhbətimizə Birinci Qarabağ müharibəsində doğmaları şəhid olan Ərəb kənd məscidi dini icmasının sədri axund Əhliman Hüseynov və qonşu Hacıtəpə kəndindən olan şair-publisist Əlizaman Baxış da qoşulurlar. Yeri gəlmişkən, hər iki ziyalı uzun müddət pedaqoji fəliyyətlə məşğul olublar. Deyirlər, Vətənə sevginin əsası həm ailədə, həm də məktəbdə qoyulur: "Elə bu sevginin gücünə Cəbrayıl kimi vətənpərvər cavanlarımız canlarından keçib xalqımızın 30 illik torpaq həsrətinə son qoydular..."







### ŞƏHİD QANI ÇİÇƏKLƏYƏN VƏTƏN TORPAĞI, YAXUD BİR CÜT YADİGAR GÖYƏRÇİN VƏ ÇAYLAQ DAŞI

Şəhid əsgərimizin bibisi Nazlı xanım deyir ki, qardaşım oğlu Vətəni ata - anasından, nişanlısından da uca tutdu. Qara libas geyinmiş bacıları Ulduzə, Firuzə və Ruziyə Cəbrayılın tez - tez təkrar etdiyi bir ifadəni dilə gətirirlər: "Oğul varsa Vətən var, Vətən varsa oğul var..." Onlar yaxşı bilirlər ki, şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Şair demişkən, "oğul" sözündən şəhid, "şəhid" sözündən Vətən ətri gəlir. Vətən müharibəsinə yola düşdüyü gün bacıları ağlayanda Cəbrayıl gülə -gülə onlara belə deyib: "Siz fəxr etməlisiniz ki, mən Vətəni, sizi müdafiə etməyə gedirəm."

...Bu gün Cəbrayılın cismən yoxluğu bacılarına ağır gəlsə də, onunla qürur duyurlar. Atası Baloğlan Cəbrayıldan yadigar qalan bir cüt göyərçini göz bəbəyi kimi qoruyur. Deyir ki, hər dəfə göyərçinlər qanad açıb səmaya qalxanda mənə elə gəlir ki, göy qübbəsində onlar oğlumun ruhu ilə görüşürlər...

Döyüş bölgəsindən Cəbrayılın anasına göndərdiyi hamarlanıb yuvarlanmış çaylaq daşını Fatimə xanım yadigar saxlasa da kövrələrək heyrətlə deyir: "Mən hələ də Cəbrayılın göndərdiyi bu daşın mənasını bilmirəm.."

Kim bilir, bəlkə düşmənin başına mərmiləri, gülləlаri yağış kimi yağdıran Cəbrayıl anasına könüllü əsgərlərin qarşısında çıxış edib, güvən verdiyi gün, "mənfur düşmənin başına daş yağdırın" sözünü xatırlatmaq istəmişdi. Bəlkə də ovuc içinə sığışan o daş köksündə şəhid qanı çiçək açan işğaldan azad olunan Vətən torpaqlarının rəmzi idi?!. "Min oğul yoxluğu bilinməz anam, bir ovuc torpağın yoxluğu qədər..."

Xırmandalı kəndindən döyüş yoldaşı Əli Fərzəliyevin dediyinə görə, sinəsini Vətənə sipər edən Cəbrayıl düşmən qarşısından bir addım da geri çəkilmədən son damla qanına qədər vuruşmuş, qəhrəmancasına həlak olaraq, qanı ilə Vətən torpağında iz qoymuşdur...

"Şəklinlə bəzənib bəylik otağın..."

Valideynləri Cəbrayılın müxtəlif illərdə çəkilmiş şəkilləri ilə bəzənmiş bəy otağını sanki kiçik xatirə muzeyinə çeviriblər. Taleyin qismətindən qaçmaq olmur. Şəhidin xatirə guşəsində bəylik kostyumu ilə əsgər paltarı yanyana asılıb. Şəhid ata - anası üçün indi yeganə təsəlli torpaq uğrunda canını fəda edən Cəbrayılın adının unudulmamasıdır.

Şəhid valideynləri dövlətin onlara göstərdiyi diqqət və qayğını yüksək dəyərləndirirlər. Rayonun rəhbəri Şahin Məmmədov özünün ad günündə 1-ci müavini Məmmədhüseyn Hüseynovla birlikdə şəhid Cəbrayıl Qasımovun valideynlərini ziyarət edib, onların qayğıları ilə maraqlanıblar.

Şəhidin ata-baba yurdu Ərəb kənd qəbiristanlığındakı məzarının ziyarətinə gələn gənclər ruhu qarşısında baş əyib deyirlər: "Səninlə fəxr edirik, Azərbaycan oğlu, məzarın and yerimiz, inam yerimizdir..."

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qeyd etdiyi kimi, biz Qələbəni döyüş meydanında şəhidlər verərək qazandıq. Onlar torpağımızı düşməndən qarış-qarış azad edəedə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə də bu Qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir. Azərbaycan xalqı sübut etdi ki, yenilməz, məğrur xalqdır.

**Nurəddin Ədiloğlu,**
***"İki sahil"***





kətin Baş direktoru ilə görüşüb.